*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 1 aprel 2020-ci il № 23 (2441) | Qiyməti 30 qəpik

# Prezident İlham Əliyev Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 28-də Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak ediblər. "Yeni klinika" tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*



- Bu gün ölkəmizin ən böyük xəstəxanalarından biri olan yeni xəstəxana fəaliyyətə başlayır. Bu, çox əlamətdar hadisədir. Xəstəxana bütün müasir standartlara cavab verir. Xəstəxananın binasının həm xarici görünüşü çox gözəldir, həm də memarlıq baxımından şəhərimizin simasına əlavə yaraşıq verir. Ən önəmlisi odur ki, bu xəstəxanada ən müasir standartlar tətbiq olunur, ən müasir avadanlıq alınıbdır, techizatla bağlı bütün işlər ən yüksək səviyyədə görülübdür. Hesab edirəm ki, bu gün bu xəstəxana Azərbaycanda techizat baxımından, avadanlıq baxımından və burada göstəriləcək xidmət baxımından aparıcı xəstəxanadır.

Bildiyiniz kimi, bu xəstəxana mənim təşəbbüsümlə inşa edilibdir. Yadımdadır, bu qərar qəbul olunanda bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Çünki son illər ərzində ölkəmizdə bir çox xəstəxanalar inşa edildi və yeni böyük xəstəxananın inşası hesab olunurdu ki, lazımsızdır. Ancaq həyat onu göstərdi ki, bu, çox düzgün və vaxtında verilmiş qərar idi. Çünki sabahdan etibarən bu xəstəxanada koronavirus xəstələri müalicə olunacaqlar. Pandemiya başa çatana qədər bu xəstəxanada yalnız koronavirus xəstələri müalicə alacaqlar. Ona görə bu xəstəxananın işə düşməsi əlbəttə ki, koronavirusa qarşı mübarizədə bizə əlavə imkanlar yaradacaqdır.

Onu da bildirməliyəm ki, xəstəxananın açılışı yayın sonunda, payız aylarının əvvəlində nəzərdə tutulurdu. Ancaq pandemiyaya görə işlər sürətləndirildi, əlavə vəsait ayrıldı, qüvvələr səfərbər olundu və biz xəstəxananın mərhələli yollarla fəaliyyətə başlamasını təmin edirik. Xəstəxanada 575 çarpayı nəzərdə tutulur. Ancaq birinci mərhələdə 100, ondan sonra 300 çarpayı artıq xəstələrin sərəncamına veriləcəkdir. Xəstəxananın ümumi sahəsi 100 min kvadratmetrə yaxındır. Burada 70 reanimasiya yeri vardır. Bu da koronavirus xəstələrinə göstəriləcək xidmətin önəmli hissəsini təşkil edir. 21 əməliyyatxana mövcuddur. Hazırda bu əməliyyatxanalara ehtiyac yoxdur. Ancaq pandemiya başa çatandan sonra bu xəstəxana öz profili üzrə fəaliyyətini davam etdirəcək.

Koronavirus xəstələrinin buraya yerləşdirilməsi hesab edirəm ki, ən düzgün qərardır. Çünki hazırda bu insanlar ən həssas təbəqədir və onların müalicəsi, onlara lazımi tibbi xidmətin göstərilməsi ən vacib məsələdir. Çünki siz həkimlər yaxşı bilirsiniz ki, hazırda hətta ən inkişaf etmiş ölkələr bu xəstəliklə mübarizədə böyük problemlər yaşayır və inkişaf etmiş ölkələrdə gündə minə yaxın insan vəfat edir. Əgər tibb sahəsi çox inkişaf etmiş ölkələrdə bu xəstəliklə bağlı belə böyük problemlər varsa, təsəvvür etmək çətin deyil ki, bizim üçün nə qədər böyük problem yarana bilər. Ona görə koronavirus xəstələrinə ən yüksək xidmətin göstərilməsi üçün ölkəmizin ən müasir, ən gözəl xəstəxanası mənim qərarımla onların ixtiyarına verilir və siz həkimlər burada onlara xidmət göstərəcəksiniz.

Bütövlükdə son illərdə ölkəmizin səhiyyə sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Onların bir çoxunun açılışında mən şəxsən iştirak etmişəm. Bu gün Azərbaycanda elə şəhər yoxdur ki, orada müasir tibb mərkəzi, xəstəxana olmasın. Üç-dörd şəhərdə mərkəzi rayon xəstəxanasının tikintisi davam edir və yaxın vaxtlarda orada açılışlar gözlənilir. Təkcə bu il Qazax, Goranboy və Şəmkir şəhərlərində mənim iştirakımla mərkəzi rayon xəstəxanalarının açılışı olmuşdur. Təsəvvür edin, əgər biz bu sahəyə fikir verməsəydik, bu gün bizim vəziyyətimiz əlbəttə ki, tələbatımızı təmin edə bilməzdi. Xatırlayıram, 2004-cü ildə mən hələ Prezident kimi fəaliyyətimə yenicə başlamışdım, Lənkəran şəhərində yaşayış binasının çökməsi nəticəsində bir neçə insan həlak oldu, bir çox insan yaralandı. Mən dərhal Lənkərana getdim, xəstələrə baş çəkdim və orada gördüyüm mənzərə məni dəhşətə gətirdi. Çünki xəstəxana adlandırılan o binaya xəstəxana demək qətiyyən mümkün deyildi. Yəni, dağılmış bina, çürümüş avadanlıq, palatalarda heç bir avadanlıq yox idi, adi yataqlar qoyulmuşdur. Dedim ki, bu, nədir? Dedilər ki, bizim mərkəzi rayon xəstəxanamızdır. Dedim ki, ağır xəstələr haradadır? Dedilər ki, reanimasiyada. Dedim aparın məni reanimasiyaya, mən onlara baş çəkmək istəyirəm. Sən demə reanimasiya nə imiş? Biz bir mərtəbə qalxdıq, eyni otaq, eyni divarlar, eyni taxta yataq, bir dənə də avadanlıq yox idi. Dedim budur reanimasiya? Dedilər bəli. Bax, 2004-cü ildə bizim səhiyyə sistemimizin vəziyyəti bu idi. Mənim göstərişimlə dərhal Lənkəran şəhərində ilk dəfə olaraq müalicə-diaqnostika mərkəzinin tikintisinə start verildi. Ondan sonra bölgələrimizdə 20-yə yaxın müalicə-diaqnostika mərkəzi inşa edilmişdir. O ki qaldı, mərkəzi rayon xəstəxanalarının inşasına, dediyim kimi, bəlkə də iki şəhərdə hələ ki, bu xəstəxanalar lazımi səviyyədə deyil, ancaq onların da inşası nəzərdə tutulur.

Bu gün biz koronavirus xəstələrini bir neçə xəstəxanada yerləşdiririk, o cümlədən Bakı şəhərində və bölgələrdə. Əgər bizdə bu infrastruktur olmasaydı, bu xəstəliyə qarşı necə mübarizə apara bilərdik?! Eyni zamanda, onu da bildirməliyəm ki, son illərdə həkimlərin peşəkarlığı böyük dərəcədə artıb. İndi təsəvvür etmək olmur ki, 10-15 il bundan əvvəl Azərbaycanda çox çətin əməliyyatların həyata keçirilməsi mümkünsüz idi. Bu gün isə bizim həkimlərimiz ən çətin əməliyyatları aparırlar, insanları həyata qaytarırlar, neçə ildir ki, açıq ürək, orqanların transplantasiyası əməliyyatları keçirilir. Yəni, bütün bunları bir neçə il bundan əvvəl təsəvvür etmək belə mümkün deyildi. Ona görə həkimlərin təlimi, onların peşəkarlığının artırılması sahəsində də böyük işlər görüldü. Bizim tələbələrimiz xarici ali tibb məktəblərinə ezam edildilər, həmçinin kurslarda təlim keçdilər. Odur ki, bu gün bizim səhiyyə infrastrukturumuz həkimlərin peşəkarlığı və bilikləri ilə uzlaşmalıdır. Hələ ki, bu istiqamətdə görüləsi işlər çoxdur. Əlbəttə, siz yaxşı bilirsiniz ki, dünya tibb elmi sürətlə inkişaf edir. Bu gün elə xəstəliklər müalicə olunur ki, əvvəlki illərdə bu xəstəliyin çarəsi yox idi. Ona görə Azərbaycan həkimləri, xüsusilə həkimlərin gənc nəsli, orta nəsli daim öz üzərində işləməlidir ki, bütün dünyada mövcud olan və yaranan yeni texnologiyalar, yeni müalicə qaydaları, yeni müalicə üsulları bizdə tətbiq olunsun. Mən hesab edirəm ki, bu sahədə əlavə işlərin görülməsi lazımdır.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Əlbəttə, hesab edirəm ki, icbari tibbi sığortanın Azərbaycanda tam tətbiq edilməsi nəticəsində biz səhiyyə sistemində çox ciddi dönüşə nail olacağıq. Bildiyiniz kimi, üç şəhərdə pilot layihə həyata keçirilmişdir. Mənə verilən məlumata görə, o şəhərlərin sakinləri İcbari Tibbi Sığorta Agentliyinin fəaliyyətindən çox razıdırlar, həkimlər də razıdırlar və xəstələr də lazımi müalicə alırlar. Ona görə bu ildən başlayaraq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulurdu. Ancaq koronavirus xəstəliyinin müdaxiləsi nəticəsində bu proqramın icrası müəyyən dərəcədə təxirə salına bilər. Çünki biz öz addımlarımızı vəziyyətə görə atmalıyıq. O cümlədən hesab edirəm ki, koronavirusla mübarizədə də biz qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində vəziyyəti nəzarət altında saxlayırıq. Halbuki bir daha demək istəyirəm, ən inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıbdır. Minlərlə insanın ölməsi və xəstəliyin demək olar ki, dünyada geniş yayılması bütün ölkələr üçün böyük sınaqdır, böyük çağırışdır. Biz elə işləməliyik, elə tədbirlər görməliyik ki, bu vəziyyətdən az itkilərlə çıxaq. Bu məqsədlə mənim göstərişimlə operativ qərargah yaradıldı. Qərargah 24 saat işləyir. Hesab edirəm ki, qərargahın fəaliyyəti nəticəsində biz çox önəmli addımlar ata bildik.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Hesab edirəm ki, biz birinci ölkələrdən idik ki, bu təşkilatla təmas yaratdıq və onların mütəxəssislərini ölkəmizə dəvət etdik. Onlar vəziyyətlə tanış oldular və bizdə görülən işlərə yüksək qiymət verdilər. Eyni zamanda, biz beynəlxalq aləmin məsuliyyətli və çox dəyərli üzvü kimi Ümumdünya Səhiyyə Təşkilatına koronavirusla mübarizə aparmaq üçün 5 milyon dollar ianə verdik. Bu da bizim ümumi işimizə, dünyanın üzləşdiyi problemin həllinə verdiyimiz dəyərli töhfədir. Əlbəttə, ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, biz bu ağır sınaqdan az itkilərlə çıxaq və vətəndaşlarımızı maksimum dərəcədə qoruyaq. Ona görə martın 14-də və ondan sonrakı tarixlərdə qəbul edilmiş qərarlar, karantin rejiminin tətbiq olunması, sabahdan etibarən yeni məhdudlaşdırıcı tədbirlərin görülməsi və onların qüvvəyə minməsi hesab edirəm ki, vəziyyətə uyğun atılmış addımlardır. Çünki biz birinci ölkələrdən idik ki, ali məktəbləri, məktəbləri, uşaq bağçalarını bağladıq, quru sərhədlərimizi bağladıq, aviareyslərin sayını kəskin azaltdıq. Hazırda cəmi iki istiqamət üzrə, özü də həftədə bir dəfə aviareyslər təşkil edilir. Bu aviareyslər ancaq Azərbaycan vətəndaşlarını ölkəmizə gətirmək rejimində işləyir. Onu da bildirməliyəm ki, bu günə qədər 10 mindən çox Azərbaycan vətəndaşı digər ölkələrdən ölkəmizə təxliyə edilib. Hazırda Azərbaycana gəlmiş hər bir insan karantinə yerləşdirilir. Hesab edirəm ki, bizim karantin üçün də gördüyümüz işlər nümunəvi xarakter daşıyır. Çünki karantinə alınan insanlar dörd və beş ulduzlu otellərdə saxlanılır. O cümədən mindən çox insan Atletlər kəndində saxlanılır.

Fürsətdən istifadə edərək iş adamlarına bu otelləri ümumi işimizə təmənnasız təqdim etdikləri üçün minnətdarlığımı bildirmək istəyirəm. Onların arasında ölkəmizin ən böyük oteli olan "Bulvar Hotel" bu xəstəliklə mübarizə aparmaq üçün öz imkanlarını tamamilə təqdim etdi. "Qafqaz", "Pullman" otelləri, bölgələrdə, o cümlədən Lənkəran şəhərində, Lerik şəhərində, bizim digər şəhərlərimizdə, Nabranda yerləşən otellər - yəni, bizim dörd, beş ulduzlu bütün əsas otellərimiz, istirahət zonaları karantində saxlanılan insanların sərəncamına verildi. Bundan başqa, bizim bəzi dövlət qurumlarının istirahət zonaları vardır, onlar da bu işə cəlb edildilər. Yəni, bir daha demək istəyirəm ki, karantində qalan insanların rahatlığı təmin edilib, dövlət bütün xərcləri öz üzərinə götürüb. Belə də olmalıdır. Bizim dövlətimiz hər zaman vətəndaşın yanındadır və bu ağır günlərdə bir daha biz bunu nümayiş etdirdik.

Ölkəmizin bir nömrəli xəstəxanasını koronavirus xəstələrinin sərəncamına vermək - bundan böyük addım ola bilməz. Ona görə əvvəlki dövrlərdə qəbul edilmiş bütün qərarlar vəziyyətə uyğun verilirdi, o cümlədən ictimai iaşə obyektlərinin iş qrafikinin məhdudlaşdırılması da. Çünki biz başa düşürük ki, insanlar artıq buna öyrəşib, bəzi insanlar artıq öz evlərində yemək bişirmirlər, gedirlər ictimai iaşə obyektlərində qidalanırlar. Biz başa düşürdük ki, birə başdan bu obyektləri bağlamaq olmaz. Biz tədricən bunu etdik, iş rejimini məhdudlaşdırdıq. Amma indi görürük ki, bu obyektlər koronavirus xəstəliyinin yayılmasında əfsuslar olsun böyük rol oynayır. Ona görə sabahdan etibarən bu obyektlər öz fəaliyyətini dayandırır. Biz bu elanı dünən axşam verdik ki, o obyektlərin sahiblərinin üçün müəyyən vaxt olsun, öz işlərini sahmana salsınlar, öz obyektlərinin fəaliyyətinin dayandırılması üçün hazırlıq işləri görsünlər. O cümlədən ticarət obyektlərinin sahiblərinə də bir gün yarım vaxt verildi ki, öz işlərini sahmana salsınlar. Ona görə biz hər bir qərarı qəbul edərkən həm xəstələri, həm sahibkarları, həm də işləyən insanları düşünürük ki, bu vəziyyətdən az itkilərlə çıxaq.

Əlbəttə, koronavirus ölkə iqtisadiyyatına da böyük zərbədir. Bizim iqtisadiyyatımız yanvar-fevral aylarında çox yüksək templərlə inkişaf edib. Təkcə onu demək kifayətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 6,7 faizdir. Bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir. Qeyri-neft sektorunda sənaye istehsalı isə 21,7 faiz artıb. Mən düşünürəm ki, bu, rekord göstəricidir. İnflyasiya 2,8 faizdir, əhalinin gəlirləri 9 faiz artıb. Yəni, bu artım inflyasiyanı böyük dərəcədə üstələyir. Orta əməkhaqqı əhəmiyyətli dərəcədə artıb. Azərbaycana gələn turistlərin sayı yanvar-fevral aylarında 18 faiz artıb. Onu da nəzərə almalıyıq ki, son 5 il ərzində turistlərin sayı ardıcıllıqla artıbdır. Yəni, bütün bunlara indi elə bil ki, ara verilir. Əlbəttə ki, indiki şəraitdə bütün ölkələr böyük iqtisadi çətinliklərlə üzləşirlər. İnkişaf etmiş ölkələrin dövlət, hökumət başçıları artıq açıq bəyan edirlər ki, bu xəstəlik çox ciddi böhrana gətirib çıxaracaq. Eyni zamanda, aparıcı beynəlxalq maliyyə qurumları da artıq açıq şəkildə bəyan edirlər ki, bu xəstəlik və onun törətdiyi və törədə biləcəyi fəsadlar 2008-2009-cu illərin böhranından daha da ağır olacaqdır. Dünya iqtisadiyyatına böyük zərbə vurulubdur. Üstəgəl neftin qiyməti iki dəfədən çox düşdü və 24 dollar səviyyəsindədir. Bu, əlbəttə ki, bizim üçün böyük itkilərə gətirib çıxaracaq. Ancaq bizim əvvəlcədən qəbul edilmiş qərarlar əsasında gördüyümüz işlər hesab edirəm imkan verəcək ki, biz bu sınaqdan da şərəflə çıxa bilək.

Amma hər kəs başa düşməlidir ki, dünya yeni dövrə qədəm qoyub. Bu, nə qədər davam edəcək heç kim bilmir. Xəstəlik nə qədər davam edəcək heç kim bilmir. Hesab edirəm ki, bütün proqnozlar şərti xarakter daşıyır. Bu xəstəliyin fəsadları özünü hansı formada büruzə verəcək? Bunu da biz bilmirik. Çünki biz hələ ki, bu xəstəliyin ibtidai mərhələsindəyik və özümüzü maksimum qorumalıyıq.

Dövlət bütün işləri görür. Qeyd etdiyim tədbirlər hesab edirəm ki, ən düzgün tədbirlərdir. Eyni zamanda, sahibkarları, işini itirənləri dəstəkləmək üçün mənim Sərəncamımla Nazirlər Kabinetinə bir milyard manat vəsait ayrıldı, dörd işçi qrupu yaradıldı. Bu işçi qruplarının vəzifəsi məşğulluq məsələlərini həll etmək, iqtisadi sabitliyi təmin etmək, makroiqtisadi vəziyyəti sabit saxlamaq və bizim maliyyə imkanlarımızı səfərbər etməkdir. Bu işçi qrupları fəaliyyətə başlayıb və təkliflər hazırlanır. Biz mütləq həm xəstələrə sahib çıxacağıq və çıxırıq, həm də ki, iş adamlarına. Xüsusilə bildirməliyəm ki, Azərbaycanın iş adamları və Azərbaycan cəmiyyəti bu vəziyyətdə özünü çox ləyaqətlə aparır. Bilirsiniz ki, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və Prezidentin ehtiyat fondundan ilkin olaraq 20 milyon manat bu fonda ianə verilmişdir. Fondun fəaliyyətə başlamasından 10 gün keçməyib, dünən axşam mənə verilən məlumata görə, artıq bu fondda 90 milyon manat yığılmışdır. Bunun mütləq əksəriyyəti şirkətlər tərəfindən verilən ianələrdir. Buna görə mən Azərbaycanın biznes nümayəndələrinə təşəkkürümü bildirirəm. Onlar əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişlər. Eyni zamanda, adi insanlar da imkan daxilində öz dəstəyini göstərirlər. Mənə müntəzəm olaraq məlumat verilir. Elə adam var ki, bir manat köçürür. Ona "Çox sağ ol!" deyirik. O da öz vətəndaşlıq borcunu yerinə yetirir. Deməli, onun imkanı buna çatır. Bu, bir daha göstərir ki, biz, - mən bunu demişəm, bir daha demək istəyirəm, - böyük xalqıq, ən ağır dövrdə birləşə bildik. "Biz birlikdə güclüyük!" şüarı hesab edirəm ki, bu xəstəlik başa çatandan sonra da qüvvədə olacaq. Biz bu birliyi, həmrəyliyi nümayiş etdiririk.

Hesab edirəm ki, bizim hələlik tam razı ola bilmədiyimiz yeganə məsələ məsuliyyətdir. Çünki bəzi insanlar özlərini məsuliyyətsiz aparırlar. Bəzi insanlar qəbul edilmiş qaydaları pozmağa çalışırlar. Beləliklə, həm özlərini, həm yaxınlarını, həm də ki, tanımadığı insanları risk altına qoyurlar. Bunu etmək olmaz. Bu qadağalar ona görə qəbul edilib ki, yoluxma halları məhdudlaşdırılsın. Yaşı 65-dən yuxarı olan insanlar küçəyə çıxa bilməzlər. Bunu onlar başa düşməlidirlər. Bizim polis işçiləri onları çox mülayim formada başa salmağa çalışırlar. Siz indi yaxşı bilirsiniz ki, bəzi ölkələrdə polis nümayəndələri necə davranırlar. Televizorda görürük, heç iki-üç sual da vermir, dərhal hərəkətə keçir. Bizim polisimiz insanları qoruyur. İndi onların üzərinə böyük yük, böyük məsuliyyət düşür. Onlar da öz sağlamlıqlarını risk altına atırlar. Gecəgündüz küçələrdə onu başa sal, bunu başa sal. Biz nə etməliyik?! Qaydaların pozulmasına imkan verə bilmərik. Biri deyir ki, mənə heç nə olmaz, biri deyir ki, mən qorxmuram. Söhbət ondan getmir ki, sənə heç nə olmaz, yoxsa olar. Birincisi, sənə bir şey olarsa, gərək ən azı 10 həkim sənə qulluq etsin, 10 həkim öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına atsın bir məsuliyyətsiz adama görə. Bu, tamamilə qəbuledilməz bir fikirdir ki, "mən qorxmuram, mənə bir şey olmaz". Hesab edirəm ki, belə adamlar məsuliyyətə cəlb edilməlidir. Biz maksimum çalışırıq ki, bu vəziyyətdə insanların narahatlığını anlayaq və kömək göstərək. Hər kəs üçün çətindir. Aydın məsələdir ki, evdə oturmaq çətindir. Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Bakı şəhərində, bütün digər yerlərdə, rayonlarda gözəl parklar, istirahət zonaları salınıbdır, hava da yaxşıdır. Ancaq hər bir adam məsuliyyətli olmalıdır. Olmaz belə. Yaşı 65-dən yuxarı insanlar evdə oturmalıdırlar. Vəssalam, birmənalı şəkildə! Həmçinin 10-dan çox insan bir yerə toplaşmamalıdır. Bunu da pozurlar. Ona görə də bu tədbirlər daha da sərtləşdiriləcək.

İndi görün Avropanın inkişaf etmiş ölkələrində nələr baş verir. Orada 2 nəfərdən çox adam bir yerə yığışa bilməz, 2 nəfərdən çox. Əgər polis işçiləri onu görürlərsə, dərhal ölçü götürürlər. Heç yalvar-yapış etmirlər, ölçü götürürlər. Ona görə bizdə hər bir kəsdə məsuliyyət hissi olmalıdır. Məsuliyyət hissi də bu gün sərgilədiyimiz həmrəylik və birlik hisslərinin səviyyəsinə qalxmalıdır.

Əlbəttə ki, bu mübarizədə əsas yük həkimlərin üzərinə düşür. Mən fürsətdən istifadə edərək Azərbaycan həkimlərinə təşəkkürümü bildirmək istəyirəm. Biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görmüşük. Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu, deyil. Əsas odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər. Həkimlərə həmrəylik və dəstək üçün müxtəlif aksiyalar keçirilir və keçiriləcək. Ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan "Alov qüllələri"ndə də həkimlərə bizim münasibətimiz öz əksini tapacaq.

Mən bir daha demək istəyirəm ki, dövlət nə lazımdırsa edir. Həkimlər əllərindən gələni edirlər. Xalqımız birlik, həmrəylik nümayiş etdirir. Ümid edirəm ki, məsuliyyət də lazımi səviyyədə olacaqdır. Belə olan halda, biz bu çətin sınaqdan az itkilərlə çıxa bilərik, öz vətəndaşlarımızın sağlamlığını qoruya bilərik. Bir daha həm özümüzə, həm bütün dünyaya nümayiş etdiririk ki, biz böyük xalqıq.

Mən sizi ürəkdən salamlayıram. Sabahdan bizim ən gözəl xəstəxanamızda koronavirus xəstələrinin müalicəsi başlanacaq. Bu, sizin üzərinizə çox böyük məsuliyyət qoyur. Mən sizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz sağlam olasınız, bu xəstəliyə yoluxmayasınız və öz vəzifə borcunuzu şərəflə yerinə yetirəsiniz. Sağ olun.

Ön xətdən reportaj

# Böyük Qələbəyə gedən yol

*Səhərdir... Havada qəribə sakitlik hökm sürür. Bu sakitlik sanki Novruzun müjdəçisidi. Əsrlərin dərinliyindən bu günümüzə gəlib çıxan ən gözəl bayramlardan biri də Novruz bayramıdır. Xalqımız bu bayramı xüsusi təmtəraqla qeyd edir. Novruzu qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir.*



Bu günün bəxş etdiyi təəssürat fərqlidir. Ona görə ki, bu gün yolumuz düşmənlə təmas xəttində yerləşən bölmələrimizdən birinədir. Vətənin keşiyində ayıq-sayıq dayanan igidlərimizlə həmsöhbət olmaq, onların bayram ovqatını öyrənmək istəyirik. Zabit yoldaşımla yolboyu xalqımızın adət-ənənələrindən, şəhidlərimizdən, işğal altında olan torpaqlarımızdan, Vətənimizin keşiyində ayıq-sayıq dayanan igidlərimizdən danışırıq. Söhbətimiz yolun uzunluğunu hiss etdirmir.

Artıq hərbi hissədəyik. İlk olaraq görüşdüyümüz polkovnik-leytenant Asəf Qurbanov döyüş növbətçiliyi aparan şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti barədə məlumat verir. "Tabeliyimizdə xidmət edən şəxsi heyətin döyüş ruhu yüksəkdir. Əsgərlərimizin döyüş vərdişlərinin təkmilləşdirilməsi üçün mütəmadi olaraq ictimai-siyasi, taktiki, atəş, mühəndis hazırlığından nəzəri və praktiki məşğələlər keçirilir. Hər bir komandir əsgərlərinin keçirilən dərsləri dərindən mənimsəməsinə çalışır. Bu yaxınlarda keçirilən təlimlər də sübut etdi ki, şəxsi heyət keçirilən dərsləri yaxşı mənimsəyib. Hesab edirəm ki, istər məşğələlərin rəhbərləri, istərsə də dinləyicilər keçirilən təlimlərdə öz qiymətlərini aldılar. Təlimlər məşğələnin keyfiyyətini, zabitin bilik, bacarıq və öyrətmək qabiliyyətini üzə çıxarır. Məlumdur ki, nəzəri biliklərin taktiki sahədə praktiki möhkəmləndirilməsi mühüm addımlardan biridir. Keçirilən genişmiqyaslı təlim şəxsi heyətin, Vətənin müdafiəçilərinin hər zaman döyüşə hazır olduqlarını göstərdi. Qarşıya qoyulan tapşırığın öhdəsindən uğurla gəldik. Hər birimizin bir amalı var - işğal altında olan torpaqlarımızı azad etmək. 2016-cı ilin Aprel döyüşlərində başladığımız Böyük Qələbəyə gedən yolu müvəffəqiyyətlə başa vurmağa hazırıq".



Hərbi hissədə yubanmadan düşmənlə üzbəüz mövqelərdə dayanan oğullarımızın yanına tələsirik. Döyüş mövqeyində baş leytenant Bəbir Həsənli ilə tanış oluruq. O, Vətənimizin hər qarış torpağının müqəddəs olduğunu deyərək söhbətə başlayır: - Böyüyüb boya-başa çatdığımız torpaq uğrunda mübarizə aparmaq, onu düşməndən qorumaq vətəndaşlıq borcumuzdur. Atam Sədərək döyüşlərinin iştirakçısı olub. O, azadlığın asan əldə olunmadığından danışardı. Sovet imperiyasının süqutundan sonra xalqımız üçün ağır günlər başladı. Azərbaycan həm yenidən bərpa etdiyi müstəqilliyini qoruyub saxlamalı, həm də xarici düşmənlərə qarşı mübarizə aparmalı oldu. Fitnəkar niyyətli qonşularımız bu çətin şəraitdən istifadə etdilər. Vətənimizin ən gözəl guşələrini işğal etdilər, soydaşlarımızı doğma el-obalarından didərgin saldılar. Ümummilli Liderimizin xalqın təkidi ilə hakimiyyətə gəlişi Azərbaycanımızı daha böyük bəlalardan qurtardı. Bu gün Ali Baş Komandanımızın apardığı uğurlu islahatlar nəticəsində dövlətimiz və ordumuz dünyanın qabaqcıl ölkələri sırasındadır. Biz Vətənin müdafiəçilərinə də yalnız xidmətdə ayıq-sayıq olmaq, əsgərlərimizin bilik və bacarıqlarını artırmaq, hər an döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad etmək qalır.

Novruz bayramından da söz açan zabit deyir ki, burada bayramı qeyd etməyin öz gözəlliyi var. "Bayramların keçirilməsi şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəlməsində müstəsna rol oynayır. Ancaq düşmənlə təmas xəttində bayram günlərində daha da diqqətli olmalısan. Bu zaman düşmən atəşkəsi tez-tez pozur. Biz də çalışırıq xidmətimizi elə quraq ki, düşmənin istənilən təxribatının qarşısını almağa hazır olaq. Qəzetimiz vasitəsi ilə başda Ali Baş Komandanımız, Müdafiə nazirimiz olmaqla, xalqımızı Novruz bayramı münasibətilə təbrik edirəm. Əmin olsunlar ki, Azərbaycan əsgəri düşmən qarşısında mətinliklə dayanıb. Bizə olan etimadı doğrultmaq, döyüş əmri ilə qarşıdakı düşməni məhv edərək, işğal altında olan torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırmağa hər an hazırıq.

- Hərbi mundirə olan marağım kiçik yaşlarımda yaranıb, - deyə gizir Elmir Beşirov söhbətə başlayır. - Valideynlərim həmişə mənə hərbiyə aid oyuncaqlar - miniatür əsgərlər, silahlar, hərbi maşınlar alardılar. Həyətdə dostlarımla oynayanda əsgər olduğumuzu hesab edərdik. Həmin vaxtdan Vətənin müdafiəçisi olmaq istədiyimi anladım. Çox sevinirəm ki, arzuma çatmışam. Bir zamanlar əlimizdə oyuncaq silahla oynayırdıq. İndi əsl silahla Vətənimizin keşiyində dayanırıq. Bundan qürurverici hiss ola bilməz. Böyüklərimizdən hər zaman Vətənimizin dar günündə onun müdafiəsinə qalxmalı olduğumuzu eşitmişik. Hərbçi olmaq istəyimi valideynlərimə bildirəndə mənimlə qürur duyduqlarını dedilər. Sənədlərimi toplayıb Müdafiə Nazirliyinə müraciət etdim. Gizir hazırlığı kursuna qəbul oldum. Tədris və xidmət dövründə əldə etdiyim təcrübələri tabeliyimdə xidmət edənlərlə bölüşürəm. Çalışıram ki, onlar da hərbin incəliklərinə dərindən yiyələnsinlər. Əminliklə deyə bilərəm ki, tabeliyimdə xidmət edən əsgərlər istənilən döyüş tapşırığını icra etməyə hazırdırlar. Ali Baş Komandanımız döyüş əmri verərsə, xalqımıza ikiqat bayram sevincini yaşatmağa hazırıq.

Gizir Elmir Beşirovla söhbətimizi yekunlaşdırıb döyüş mövqeyində olan şəxsi heyətə yaxınlaşırıq. Əsgərlərimizdən döyüş növbəsində olanda hansı hissləri keçirdiklərini soruşuruq. İlk olaraq söhbətə əsgər Kənan Məmmədov başlayır. "Ali təhsil aldığım müddətdə xarici ölkədə oldum. Ancaq uşaq vaxtlarımızdan eşitdiyimiz bir bayatı var. "...Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı." Ukraynada olduğum zaman bu bayatının mənasını daha dərindən başa düşdüm. Əminliklə deyə bilərəm ki, nə qədər inkişaf edirsə-etsin, nə qədər gözəl olursa-olsun, heç bir xarici diyar Vətənimizin yerini verə bilməz. Xalqımızın çox zəngin adət-ənənələri, heç bir xalqa məxsus olmayan qonaqpərvərliyi var. Çox sevinirəm ki, təhsilimi müvəffəqiyyətlə başa vurub Vətənimə geri döndüm. Çalışacağam ki, xaricdə öyrəndiklərimi dövlətimizin inkişafında da istifadə edim. Hər bir gəncin həyatında əsgəri xidmətin xüsusi yeri var. Fəxr edirəm ki, bu gün güclü Azərbaycan Ordusunun əsgəriyəm. Vətənin müdafiəçilərinin sıralarına qatıldıqdan sonra bir daha əmin oldum ki, ordumuz Azərbaycan xalqını vüsalına çatdırmaq gücündədir".

- Hər birimiz xidmətimizi düzgün təşkil etməyə, verilən əmr və tapşırıqları vaxtında yerinə yetirməyə, sahib olduğun peşəyə dərindən yiyələnməyə, müasir silah və texnikanı mənimsəməyə çalışırıq, - əsgər Elvin Ələkbərov deyir. - Fəxr edirəm ki, xidmətimi ön xətdə davam etdirirəm və xidmətimlə komandirlərimin, əsgər yoldaşlarımın rəğbətini qazanıram. Məsuliyyət hissi, vətəndaşlıq borcu, torpaq təəssübkeşliyinin sayəsində başqa cür olmağa haqqım da çatmır. Çünki ata-babalarımızdan Vətənimizi göz bəbəyimiz kimi qorumalı olduğumuzu öyrənmişik. Qarabağ müharibəsi hər bir azərbaycanlı ailəsində silinməz izlər qoyub. Atam da Qarabağ müharibəsinin iştirakçısıdır. Ağlım kəsəndən o, döyüşçülərimizin qəhrəmanlıqlarından danışardı. Hər dəfə o anları yenidən yaşadığını hiss edərdim. Həmişə deyərdi: "Oğlum sən də bu Vətənin övladısan. Vaxtı gələndə sən də Vətənimizi düşməndən qoruyacaqsan. O zaman xidmətini düzgün təşkil et, hər zaman torpaqlarımızın keşiyində ayıq-sayıq dayan". Onun bu sözləri həyatıma mayak oldu. Hərbi xidmətə çağırış vərəqəsi alanda atam məndən çox sevinirdi. Onun gözlərində olan sevinci, keçirdiyi qürur hissini heç vaxt unutmaram. Çalışacağam ki, bundan sonra da nümunəvi xidmət edim.



Hərbi hissədə keçirilən fiziki hazırlıq məşğələsindən danışan əsgər Əli Talıbzadə idmanın insanın formalaşmasında əsas amillərdən biri olduğunu qeyd edir. "Komandirlərimiz fiziki hazırlığın döyüş hazırlığının tərkib hissəsi olduğunu vurğulayırlar. Fiziki cəhətdən möhkəm əsgər döyüş meydanında istənilən tapşırığı uğurla icra etməyə qadirdir. Bunu əsas tutaraq, komandirlərimiz fiziki hazırlığımızı daima diqqət mərkəzində saxlayırlar. Hərbi hissəmizdə də müasir tələblərə cavab verən idman şəhərcikləri yaradılıb. Günün nizam qaydasına uyğun olaraq idmanla məşğul oluruq, fiziki imkanlarımızı artırırıq. Unutmamalıyıq ki, hər bir əsgər hazırlığına görə fərdi məsuliyyət daşıyır. Bunun üçün əlimizdən gələni əsirgəmirik. Hərbi hissədə mütəmadi olaraq bölmələrarası yarışlar keçirilir. Yarışın qalibləri komandanlıq tərəfindən mükafatlandırılır. Onlar da istəyirlər ki, əsgərlərimiz düşmənlə üz-üzə gəldikdə ona layiqincə cavab verə və döyüşü qalib kimi tərk edə bilsinlər. Komandirlərimiz də tabeliyində xidmət edənlərin fiziki cəhətdən güclü olmalarının marağındadırlar. Arzum budur ki, üçrəngli bayrağımızın Qarabağımızın ən uca zirvəsində dalğalandığını görüm".

- Əsgərlik dostu ömür dostudur, - deyə əsgər İlkin Əmirli xidməti dövründə qazandığı dostlardan danışır. - Dost insanın həyatı boyu qazandığı ən dəyərli və güzgü kimi özünü əks etdirən biridir. Boş yerə deməyiblər: "Dostunu göstər, deyim sən kimsən." Dost hər zaman yanında olar, sevincini və kədərini səninlə bölüşər... Uşaq bağçasından, məktəbdən yalnız bir neçə şəxslə dost olursan. Hərbi xidmətə gəldiyim ilk gündən çoxlu dost qazanmışam. Çox sevinirəm ki, dostlarımın sırasında İsmayıl Kərimov, Elşən Cəfərov, Vahid Tahirov və Rəhman Lətifov kimi vətənpərvər oğullar var. Mən o xoşbəxt insanlardanam ki, xidmətim dövründə belə sadiq dostlar qazana bildim. Ancaq ən böyük xoşbəxtlik torpaqlarımızın azad olunan günü yaşayacağımız xoşbəxtlikdir. Hər birimizin ən böyük arzusu qələbədir, işğal altında olan torpaqlarımızın azad olunmasıdır. İnanırıq ki, həmin günü həsrətlə gözləyən, qələbə sevincini yaşamaq istəyən xalqımızın arzularını gerçəkləşdirəcəyik. Qarabağ həsrətinə son qoyulacaq. Həmin gün uzaqda deyil. Bax, onda ölkəmizdə ən böyük bayram tonqalını o yerlərdə qalayacağıq".

Döyüşçülərimizlə xoş söhbətdən zamanın necə keçdiyinin fərqinə varmadıq. Artıq hava qaralır. Mərd oğullarımızla sağollaşıb yola düşürük. Avtomobil döyüş mövqeyindən uzaqlaşır. Ancaq Vətənin keşiyində dayanan oğullarımızın sözlərini düşünürəm. Onların hər kəlməsi Azərbaycanımızın güclü orduya malik olduğundan, torpaqlarımızı işğaldan azad edəcəyimiz günün yaxınlaşdığından xəbər verir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda praktiki atışlar keçirilib



Əlahiddə Ümumqoşun Ordunun ön xətdə xidmət edən zenitçiləri ilə praktiki atışlar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə birləşmə, hissə və bölmələri Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edir və uğurlu döyüş növbətçiliyi həyata keçirirlər.

Hava məkanımızı müdafiə etmək kimi şərəfli xidmətləri ilə fəxr edən hərbi qulluqçularımızın bilik və bacarıqları daim təkmilləşdirilir. Növbəti dəfə isə ümumqoşun birləşməsinin ön xətdə yerləşən hava hücumundan müdafiə bölməsində 23 mm-lik zenit qurğularının heyətləri ilə praktiki atışlar keçirilib.



Atışlar zamanı əsas diqqət aşağı hündürlüklərdə uçan, qəfil peyda olan, eləcə də yerüstü hədəflərin vaxtında aşkar olunaraq məhv edilməsinə yönəldilib.

Atışların nəticəsi bir daha göstərdi ki, ön xətdə yerləşən hava hücumundan müdafiə bölmələrimiz hər an düşmənin qəfil hava hücumunu dəf etməyə hazırdırlar.




# Şamaxıda mart qırğınları

Azərbaycan torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq istəyən erməni millətçilərinin 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməlləri arasında öz miqyasına görə Şamaxı qırğınları ayrıca yer tutur.

1918-ci il mart ayının ikinci yarısında Bakıdan 3 minədək erməni qoşununun silah və sursatla Şamaxıya doğru hərəkət etdiyi barədə məlumatlar gəlir. Şamaxıdakı azərbaycanlı nümayəndələr bu məlumatları erməni nümayəndələrlə bölüşür, ermənilər bu məsələ ilə bağlı Bakıda Erməni Milli Şurasına verdikləri sorğuya müsbət cavab alırlar. Məlum olur ki, qoşun Bakı Soveti tərəfindən göndərilib və ünvanına da yetişəcək. Belə olan halda azərbaycanlı və ermənilərdən ibarət bir heyət təşkil edərək onu gələn qoşunun qabağına göndərmək, onun nə məqsəd güddüyünü müəyyənləşdirmək və şəhərdən yan keçərək bütün silahın Şamaxı qarnizonuna təhvil verilməsini təklif etmək qərara alınır. Şamaxı qəza komissarı Azad bəy Qocamanbəyov və erməni yepiskopu Baqrat, eləcə də nüfuzlu azərbaycanlı və erməni nümayəndələrdən ibarət heyət dəstənin dayandığı Mərəzə (molokan) kəndinə yollanır. Səhər saat 5-də Azad bəyin göndərdiyi çapar 600 at, 8 top və 12 pulemyotla gələn hərbi dəstənin tam döyüş hazırlığında olduğu, yol boyu rast gəldiyi müsəlmanları - 8 kişi, bir qadın və iki uşağı öldürdüyü, Şamaxını təhlükə gözlədiyi və təcili tədbirlər görülməsinin vacibliyi barədə xəbər gətirir. Şəhərin azərbaycanlı rəhbərləri Ağsuda qaçaq dəstələrini tərksilah edən milis rəisi Tərlan bəy Əliyarbəyovu dərhal geri çağırırlar, ətraf kəndlərin silahlı kəndliləri Şamaxıya axışmağa başlayır. Ertəsi gün nümayəndə heyəti Şamaxıya qayıdır və məlum olur ki, qoşun silahları təhvil verməkdən imtina edib, uzun və ağır danışıqlardan sonra yalnız şəhərə girməyərək birbaşa Mədrəsə kəndinə getməklə razılaşıb. Erməni yepiskopu Baqratın dəstənin evlərinə qayıdan 300 molokan və 900 nəfər ermənidən ibarət olduğu və qəzada əmin-amanlığı bərpa etmək məqsədi güddüyünə dair sakitləşdirici şərhlərinə baxmayaraq, erməni komandirlərinin heyəti çox aqressiv qarşıladığı, Azərbaycan nümayəndələrini girov götürmək istədiyi, Baqratın çətinliklə onları bu addımdan çəkindirdiyi barədə məlumatlar, nəhayət "bu torpağın sahibi siz yox, bizik və sizə hakimiyyətə necə tabe olmağı göstərərik", "on gündən sonra Bakıdan iki zirehli maşın Kürdəmiri dağıdaraq müsəlmanları hər tərəfdən mühasirəyə alacaq", "biz Şamaxını bütünlüklə təslim etmək və müsəlman əhalisini qırmaq üçün gəlmişik" kimi açıq səsləndirilən bəyanatlar təhlükənin çox ciddi olduğunu göstərir. Yaranmış vəziyyəti müzakirə edən azərbaycanlılar hərbi dəstənin Şamaxıya girməmək haqda vədinin inandırıcı olmadığını və qüvvələr nisbətini götür-qoy edərək ilk növbədə Tiflisə, Zaqafqaziya Komissarlığına müsəlman əhalinin müdafiəsi üçün kömək göndərilməsi haqda müraciət etməyi qərara alırlar. Lakin hadisələrin sürətli inkişafı Tiflisdən kömək barədə ümidlərin doğrulmasına vaxt qoymur.

Şamaxı qarnizonunun erməni və rus əsgərləri silah anbarını yararaq silahları daşımağa başlayırlar. Bundan xəbər tutan müsəlmanlar - silahlı şəhər və kənd sakinləri əsgərlərə mane olmağa çalışır və atışma başlayır. Hər iki tərəfdən yaralananlar olur. Hadisə yerinə gələn A.Qocamanbəyov və T.Əliyarbəyov çətinliklə məsələni yoluna qoyurlar, lakin elə bu vaxt erməni birləşmələrinin Qozlu-çay (Hilmilli) molokan kəndi tərəfdən Şamaxı istiqamətində hərəkət etdiyi barədə məlumat alınır. Çuxuryurdun molokan qocaları da Şamaxıya ən yaxın Əngəxaran kəndinin sakinlərini yaxınlaşmaqda olan hücum barədə xəbərdar edərək onlara kənddən çıxmağı məsləhət görürlər. Tərlan bəyin rəhbərliyi altında keşikçi və milis, eyni zamanda, şəhər və kənd sakinlərindən təşkil olunan könüllü dəstələr Şamaxıya gələn yollarda səngərlər yaradırlar. Dəstələrə yalnız erməni birləşmələrinin Şamaxıya girəcəyi halda atəş açmaq tapşırılır. Şamaxı dini rəhbərləri - Müfti Mustafa Əfəndi, Hacı Şıx-Həbib və Axund Cəfər Qulu öz çalmalarına and verərək kəndliləri hər hansı təxribata uymamaq, dəstə Şamaxıdan yan keçərsə, atəş açmamağa çağırırlar. Ertəsi gün, martın 27-də, səhər saat 5-də erməni birləşmələrinin Əngəxarandan sakitcə keçdiyi və Meysarı yolu ilə Mədrəsəyə getdiyi barədə xəbər gəlir. Lakin 1 saatdan sonra ermənilərin Şamaxıya hücuma keçəcəkləri haqda xəbər yenidən şəhərdə həyəcan yaradır. Mədrəsə tərəfdən Şamaxıya atılan bir neçə top atəşi şübhə yeri qoymadığından səngərlərdə dayanan müsəlmanları da cavab atəşi açmağa məcbur edir. 4 saat davam edən atışma zamanı hər iki tərəfdən itkilər verilsə də, müsəlmanların öz mövqelərini tərk etməməsi nəticəsində ermənilər həmin gün şəhəri ala bilmirlər və Mədrəsə kəndinə çəkilirlər. Lakin qarşıdurma bununla bitmir. Səngərlərdən çıxaraq şəhərə qayıdan müsəlman sakinlər gözlənilmədən erməni hissəsindəki evlərin damlarından və həyətlərindən atılan atəşə məruz qalırlar. Cavab atəşi veriləndə yenidən, artıq şəhərin müsəlman və erməni əhalisi arasında silahlı qarşıdurma başlayır.

Ermənilər Mədrəsə tərəfdən hücuma keçirlər. Qəza komissarı, keçmiş çar polkovniki Azad bəy Qocamanbəyovun rəhbərliyi altında döyüşən dəstələr Şamaxının girəcəyində erməni dəstələrinin hücumunun qarşısını almağa və dinc əhalinin şəhərdən çıxmasına imkan yaratmağa çalışır. Bu hadisələrdən az əvvəl yerli cavanları hərbi işə hazırlamaq məqsədilə dəvət edilmiş iki türk zabiti də şamaxılıların kiçik dəstələri ilə birlikdə Mədrəsə erməniləri ilə döyüşə girir və bir neçə saat onların qarşısını kəsir. Tərlan bəy Əliyarbəyovun milis dəstələri müsəlman əhalinin müdafiəsini təşkil edir. Müsəlmanlar günorta saat 12-dək müqavimət göstərirlər. Lakin Çobanı kəndinin molokanlarının top atəşləri ilə arxadan hücuma keçməsi müsəlmanlar arasında böyük çaşqınlıq yaradır. Bundan istifadə edən şəhər erməniləri yuxarı hissədən şəhəri hücumla alırlar.

Şamaxının 2 tərəfdən - erməni və molokan kəndlərindən top və pulemyotlardan atəşə tutulması axşama kimi davam edir, nəticədə şəhərin ən abad hissəsi - zəngin müsəlmanlara məxsus Piran-Şirvan yaşayış məhəllələri yanğınla tamamilə məhv edilir. Şəhərin küçələri insan cəsədləri ilə örtülür.

Aprelin 10-da günorta saat 3-də Bakı qırğınlarında ağlasığmaz vəhşilikləri ilə ad çıxarmış Stepan Lalayev və Tatevos Əmirovun başçılıq etdiyi erməni və molokanlardan ibarət qoşunlar qəfildən Şamaxını mühasirəyə alır və az sonra dağıdıcı qasırğa kimi şəhərin üstündən keçirlər. İstisnasız olaraq müsəlmanlara məxsus bütün evlər, ticarət və mülki obyektlər yandırılır və dağıdılır. Yanğına bürünmüş şəhər bir neçə saatdan sonra xarabazarlığa çevrilir. Şamaxıda qalmış müsəlman əhali, qadın, uşaq və qocalara rəhm edilmədən güllələnir, yandırılır. Erməni əsgərləri Bakıda olduğu kimi, əllərində siyahılar, fəal və zəngin müsəlmanların evlərinə hücum edərək onları xüsusi "həvəslə" qarət edir, sonra isə yandırırlar. Bu yolla şəhər başçısı Teymur bəy Xudaverdiyev, Şamaxının fəxri vətəndaşı, tanınmış dövlət və ictimai xadim, I Dövlət Dumasının deputatı Məmməd Tağı Əliyev, Şamaxının bütün məşhur kübar ailələrinin - Veysov, Şıxəlibəyov, Ağalarov, Cəbrayılbəyov, Məlikbəyov, Əzimbəyov, Əyyubbəyov, Hüseynbəyov, Fəttahbəyov, Fətəlibəyov, Sadıqbəyov və başqaları ailə üzvləri ilə birlikdə qətlə yetirilir. Şamaxının ən nüfuzlu din xadimlərindən Axund Cəfərqulunun qətli xüsusi qəddarlığı ilə fərqlənir. Axund olduğu "Yuxarıqala" məscidinin yerləşdiyi məhəllə sakinlərinin xətrinə şəhəri tərk etməmişdi. Bu din xadimi özünün sülhsevər fəaliyyəti və barışdırıcı nitqləri ilə məşhur idi və bir neçə dəfə baş verə biləcək milli münaqişələrin qarşısını almışdı. Yalnız müsəlmanlar deyil, ermənilər arasında da olan hörmətinə ümid edən Axund evində, həyətində və məsciddə bir neçə yüz qadın və uşağa sığınacaq verərək bu yolla onları ölümdən xilas edəcəyini düşünürdü. Ermənilər Axundun evini və məscidi insanlarla birlikdə yandırırlar, Axundun özünü isə ağır işgəncələr verməklə - dilini, qulaqlarını, burnunu kəsərək, gözlərini çıxararaq, dərisini soyaraq öldürürlər.

Şamaxı məscidləri erməni talançılarının məqsədli hədəfi olur. Nəticədə Şamaxının bütün 12 məhəllə məscidləri və 800 illik tarixi olan Cümə məscidi yanğın və dağıntılara məruz qalır. Bu məscidlərdə 2000-nə qədər Şamaxı sakini diri-diri yandırılır.

Ümumilikdə isə Şamaxıda iki dəfə törədilmiş azərbaycanlı qırğınları zamanı şəhərin müsəlman əhalisindən 8-10 min nəfəri qətlə yetirilib. Qalan şəhər əhalisi qaçqın halında Azərbaycanın müxtəlif şəhər və qəzalarına dağılışır.

Bakıda olduğu kimi, Şamaxı qırğınlarında erməni icmasının başçıları həmin qırğınların birbaşa təşkilatçıları və rəhbərləri olmuşlar. Şamaxı ictimaiyyəti bu təşkilatçılar arasında Şamaxı, sonradan Bakı erməni yepiskopu olmuş Baqratın xüsusi rolunu qeyd edirdilər.

1918-ci il Şamaxı qırğınları yalnız şəhəri deyil, qəzanın kəndlərini də əhatə etmiş və 1918-ci ilin iyul ayının ortalarınadək, bu ərazilər Türk-Azərbaycan qoşunları tərəfindən azad olunana qədər davam etmişdir. Həmin dövrdə, ümumilikdə Şamaxı qəzasının 106 kəndi yandırılmış və dağıdılmış, 110 kəndin sakinləri isə erməni-molokan quldur dəstələrinin hücumundan zərər çəkmişlər. Həlak olmuş kənd sakinlərinin - yalnız hücumlar zamanı və əsirlikdə öldürülənlərin - ümumi sayı, 4359 nəfəri qadın və uşaq olmaqla, 10.341 nəfər təşkil etmişdir.

Şamaxı qəzasındakı Azərbaycan qırğınlarını görünməmiş miqyası və nəticələrinə görə milli fəlakət adlandırmaq olar. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət idarələri qəzalarda fəaliyyətə başlayanda büsbütün dağıdılmış Şamaxı şəhərində bir salamat bina belə tapılmamış, ağır maliyyə çətinliklərinə baxmayaraq, hökumət şəhərin bərpası, qaçqınların öz evlərinə, xüsusilə kəndlərinə qayıtması sahəsində xeyli iş görmüşdür. Bununla belə, şəhərin əvvəlki mövqeyini, xüsusilə dərin tarixi ənənələri olan Şamaxı cəmiyyətinin əvvəlki statusunu bərpa etmək artıq mümkün olmamışdır. 1921-ci ildə Şamaxı şəhərinin əhalisinin 1700 nəfərdən ibarət olması buna sübutdur.

Şamaxı faciələrini Azərbaycanın digər bölgələrindəki qırğınlardan fərqləndirən daha bir cəhət qəzanın molokan-rus əhalisinin bu hadisələrdə ermənilər tərəfində fəal iştirakıdır. Ayrıca mövzu olan bu məsələ Fövqəladə Təhqiqat Komissiyasının Şamaxıya dair tədqiqatlarında xüsusi diqqət mərkəzində olsa da, ona dəqiq cavab tapılmamışdır. Şamaxı qırğınlarına dair komissiyanın sənədləri, ümumilikdə 22 cild istintaq materialı və 63 foto-şəkil təşkil etmişdir. Bu sənədlər 1918-ci il Şamaxı faciəsinin tam mənzərəsini yaratmaqla onun miqyasını, nəticələrini və səbəblərini araşdırmağa imkan verir.

**Solmaz RÜSTƏMOVA-TOHİDİ**
**tarix elmləri doktoru, professor**

*2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı.*

# Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsidir



Ermənistan ordusunun təxribatlarına cavab olaraq 2016-cı il aprelin əvvəllərində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı nəticəsində yaranan rezonans Ermənistanın siyasi-hərbi rəhbərliyində dərin çatların əmələ gəlməsinə səbəb oldu ki, bunun nəticələrini biz bu gün də Ermənistan cəmiyyətində müşahidə edirik. Nəticədə erməni xalqı öz "şanlı ordusunu" tanıdı, eyni zamanda, bu ölkədə işğalçılığın və separatizmin dövlət səviyyəsində dəstəkləndiyi təsdiq olundu. Aprel zəfərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Aprel qələbəsi əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu.

Aprel döyüşləri Azərbaycan xalqının və ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Müdafiə Nazirliyinin rəhbərliyinin təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Bütün bunlar onu göstərir ki, XX əsrin əvvəllərində əsası qoyulan ordumuzun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir. Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində qorunub saxlanılan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şərəfli missiyasını uğurla davam etdirir.

Dövlət başçısının diqqət və qayğısı sayəsində ölkəmizdə mütəşəkkil, qüdrətli ordu formalaşdı və onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yarandı. Ümummilli Liderimizin əsasını qoyduğu milli dövlət quruculuğu və Azərbaycan Ordusunun müasir səviyyədə qurularaq gücləndirilməsi prosesinin düzgün inkişaf etdirilməsi nəticəsində ordumuzun formalaşdırılması, torpaqlarımızın layiqli şəkildə qorunması işinin təşkili istiqamətində qəti addımlar atıldı, yeni strategiyaya əsaslanan ordu siyasətinin əsası qoyuldu.

Eyni zamanda, Azərbaycan Ordusunda aparılan islahatlar nəticəsində hərbi hissələrdə, kollektivlərdə mənəvi sağlamlaşma dövrü başladı. Hərbi hissələrin ərzaq, əşya-əmlak təminatı gücləndirildi, silah-sursatla təchizat, hərbi qulluqçuların sosial-məişət şəraiti daha da yaxşılaşdırıldı. Azərbaycan əsgərinə və zabitinə münasibət dəyişdi. Qürur mənbəyimiz olan ordumuz ümid yerimizə çevrildi. Döyüş hazırlığının yüksəldilməsi və torpaqlarımızın işğaldan azad olunması naminə islahatlar aparıldı.

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində nəzərdə tutulan uğurlara nail olundu.

Azərbaycan Ordusunda yeniləşməyə yol açan sürətli dəyişikliklər və komplektləşdirmə işləri həyata keçirildi. Hətta cəbhə zonasında döyüş tapşırığı icra edən hərbi hissələrin məişət şəraiti daha da yaxşılaşdırıldı, əsgərlərin təlimlər və döyüş növbəsi ilə yanaşı, məişət xarakterli işlərlə məşğul olmalarının miqyası azaldıldı.

Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyət və təminatın təşkili, döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların icrasının yoxlanılması məqsədilə keçirilən təlimlərə ordunun şəxsi heyəti, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnika cəlb edildi.

Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə belə asanlıqla qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq xalqımızın maddi rifahına təsir edən bütün tədbirlər Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaratdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində yeni hərbi hissələr inşa edildi, şəxsi heyət üçün hər cür şərait yaradıldı. NATO standartlarına uyğun qurulan hərbi hissələr və müasir kriteriyalar əsasında müəyyənləşdirilən sosial-məişət şəraiti şəxsi heyətin xidmətinə öz təsirini göstərdi.

Ölkə başçısının bu istiqamətdə atdığı çox mühüm və ardıcıl tədbirlər nəticəsində Azərbaycanda ordu sıralarında xidmət edən, Vətənin keşiyində dayanan, onun inkişafına xidmətlər göstərən hərbi qulluqçuların problemlərinin həll edilməsi də dövlətin qarşısında duran prioritet məsələlər sırasında oldu. Əlbəttə ki, bütün məsələlərdə olduğu kimi, burada da Azərbaycan dövləti üzərinə düşən vəzifələri yerinə yetirdi və hərbi qulluqçuların mənzil-məişət problemləri uğurla həll edildi.

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən bütün hərbçilər ardıcıllıqla şəxsi və xidməti mənzillərlə təmin olunmaqdadır. Bu baxımdan 2019-cu il xüsusilə yadda qaldı. Məsələn, keçən ilin sonunda cəbhəboyu zonada iki hektardan çox ərazidə inşa edilən, ailəli və subay hərbi qulluqçular üçün nəzərdə tutulan, iki və üçotaqlı təmirli mənzillərdən ibarət olan binalar lazımi kommunikasiya sistemləri ilə təchiz edilərək xidməti mənzil kimi hərbçilərin istifadəsinə verildi. İlin sonu, həmçinin Azərbaycan Ordusunun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) aviabazasının ərazisində yerləşən növbəti yaşayış binasının hərbi qulluqçuların istifadəsinə verilməsi ilə diqqət çəkdi.

Ötən il ərzində qoşunların yerləşdirilməsi sisteminin təkmilləşdirilməsi və müasir sosial-məişət infrastrukturuna malik hərbi şəhərciklərin yaradılması üzrə tədbirlərin yerinə yetirilməsi davam etdirildi. Hərbi hissələrdə müxtəlif təyinatlı 60-dək hərbi infrastruktur obyekti, bir yeni hərbi hospital kompleksi, hərbi qulluqçular üçün yaşayış binaları inşa edildi, ümumilikdə 200-dən artıq xidməti mənzil hərbi qulluqçuların istifadəsinə verildi, müxtəlif təyinatlı 26 hərbi infrastruktur obyekti təmir olundu və bir sıra obyektlərin inşası hələ də davam etdirilməkdədir. Ötən ilin sonunda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə 436 ailəyə mənzil verildi. Ümumilikdə son iki ildə Azərbaycanda 2500-dən çox hərbçi ailəsi mənzillə təmin olundu.

Yeni xidməti və şəxsi mənzillərin istifadəyə verilməsi hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsidir. Bu, ümumilikdə Azərbaycan Ordusunda şəxsi heyətin mənzil təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin davamıdır. Bütövlükdə dövlətimizin siyasi və iqtisadi əsaslarının möhkəmləndirilməsi, müdafiə qüdrətinin artırılması istiqamətində qəbul edilən qərarlar, atılan uğurlu addımlar böyük nailiyyətlərin əldə olunmasını təmin etdi. Görülən işlər ordu quruculuğu prosesinə müsbət təsirini göstərdi.

Ordu quruculuğunun tərkib hissəsi kimi Azərbaycan Prezidentinin Sərəncamları ilə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün Bakı, Naxçıvan, Gəncə və digər şəhərlərdə xidməti və fərdi yaşayış evlərinin tikintisi üçün milyonlarla vəsaitin ayrılması xüsusi əhəmiyyət kəsb edir. Bundan başqa, ölkə başçısının son 16 ildə Sərəncamları ilə Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik, Fövqəladə Hallar nazirliklərinin, o cümlədən, Xüsusi Dövlət Mühafizə və Dövlət Sərhəd xidmətlərinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının dövlət büdcəsindən maliyyələşdirilən qurumlarında çalışan hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması da diqqət mərkəzində saxlanıldı. Bütün bu nəzərəçarpan addımların və ordu quruculuğu ilə bağlı həyata keçirilən tədbirlərin daha geniş, əhatəli miqyasda icrası Dağlıq Qarabağ probleminə münasibətdə dövlət rəhbərliyinin qətiyyətli mövqeyinin dəyişməz olduğunu və xalqımızın ümumi mövqeyilə birmənalı şəkildə uzlaşdığının məntiqi nəticəsidir. Xüsusilə, hər il dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin miqdarı əhəmiyyətli dərəcədə artırıldıqca, Silahlı Qüvvələrin maddi-texniki bazası müasir tələblərə uyğunlaşdırılır, şəxsi heyətin mənəvi-psixoloji və döyüş hazırlığında yeni nailiyyətlər əldə olunur, davamlı olaraq hərbi qulluqçulara verilən imtiyaz və güzəştlərin miqyası genişlənir, hərbi qulluqçuların mənzil-məişət problemlərinin köklü şəkildə həll olunmasına əsaslı zəmin yaranır. Atılan addımlar tək xidmət edənləri deyil, eyni zamanda, vaxtilə ərazi bütövlüyü uğrunda vuruşmuş ehtiyatda olan hərbi qulluqçuların, eyni zamanda şəhid olanların ailə üzvlərini də əhatə etdi.

Ölkənin milli-strateji maraqlarının təmin olunmasına, xalqla dövlət arasında bağlılığın möhkəmləndirilməsinə xidmət edən bu mütərəqqi addımlar daim ardıcıl şəkildə həyata keçirilir. Odur ki, bu gün regionda modern ordu quruculuğu siyasətinə görə nümunə hesab edilən Azərbaycan Respublikasının müasir tələblərə cavab verən ordusu ölkənin ərazi bütövlüyünü təmin etmək iqtidarındadır.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa sahibdir. Aprel döyüşləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını, xalqın arzu və istəyini reallaşdıracaq ordumuzun şəxsi heyətinin daim döyüşə hazır olduğunu göstərdi. Aprel zəfəri sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti istənilən qələbələri qazanmağa qadirdir və ordumuz tezliklə Vətən torpaqlarını düşməndən xilas edəcək!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu Qoşunlarında yarış keçirilib

*Naxçıvan Qarnizonu Qoşunlarında "Ən yaxşı tank və zirehli döyüş maşını heyəti" adı uğrunda yarış keçirilib.*



Yarışın planına əsasən, tanklar, piyadanın döyüş maşınları və zirehli transportyorlar üzrə bilikləri yoxlanılan hərbi qulluqçulardan döyüş və texniki hazırlıq üzrə normativlər qəbul olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, heyətlər döyüş texnikalarından ustalıqla istifadə edərək hədəfləri sərrastlıqla məhv edib və sürücülük çalışmalarını peşəkarlıqla yerinə yetiriblər.

"Ən yaxşı tank və zirehli döyüş maşını heyəti" adı uğrunda yarışda fərdi qiymətləndirmə də aparılaraq ən yaxşı tank-döyüş maşını komandiri, tuşlayıcı-operator və mexanik-sürücü adlarını qa-



zananlar da olub. Yarışda yüksək nəticələr göstərmiş hərbi qulluqçular Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi Dəniz Qüvvələrində taktiki təlim keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi illik plana əsasən, Xəzər dənizinin Azərbaycan Respublikasına aid olan sektorunda Hərbi Dəniz Qüvvələrinin gəmi və katerlərinin iştirakı ilə taktiki təlim keçirilib.

Təlimin keçirilməsində əsas məqsəd əlverişli əməliyyat rejiminin saxlanılmasını təmin və neft-qaz hasilatı rayonlarının, həmçinin sualtı boru kəmərlərinin keçdiyi ərazilərin mühafizəsini təşkil etməkdən ibarət olub.

Təlimin sonunda gəmi və kater heyətlərinin ümumi fəaliyyətləri nəzərdən keçirilərək təhlil edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***30 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***31 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanda hərbi xidmətə çağırış müddəti mayın 31-ə qədər uzadılıb

Azərbaycanda hərbi xidmətə çağırış müddəti mayın 31-ə qədər uzadılıb.

AZƏRTAC-ın məlumatına görə, Milli Məclisin martın 30-da keçirilən iclasında bununla bağlı "Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışı müddətinin uzadılması haqqında" Azərbaycan Respublikası qanununun layihəsi müzakirə edilərək qəbul olunub.

# "Vətənə xidmət etmək qürurludur"

Azərbaycan əsgəri ilə görüşə gedirik. Yolumuz səngərədi. Uzun yolun sonunda Vətən müdafiəçilərinin yanına çatırıq. Şəxsi heyətlə və bölmənin şəraiti ilə tanış olduqdan sonra hərbi xidmətdən ehtiyata buraxılmağa sayılı günləri qalan əsgərlərlə həmsöhbət oluruq. Ordu həyatının gənclərə aşıladığı mənəvi keyfiyyətləri, müstəqil həyata təzəcə qədəm qoyan gəncin hərbi xidmətdə necə formalaşdığı və hansı vərdişlərə yiyələnməsi haqqında düşüncələrini onların öz dilindən öyrənirik. Hər biri bölmədə yaradılan şəraitdən razılıq etdilər. Təmirsan. Valideynlərimin yanına bacarıqlı, nümunəvi xidməti ilə komandirlərinin sevgisini qazanmış biri kimi qayıdıram. Buna görə də çox sevinirəm. Sevinirəm ki, atam, anam məni qucaqlayıb "halal olsun oğul, səninlə fəxr edirik" deyəcəklər. Silahdaşlarımdan ayrılacağım üçün də duyğulanıram. Evə bir arzu ilə gedəcəm - Ali Baş Komandanımızın döyüş əmri ilə yoldaşlarımla çiyin-çiyinə döyüşə atılmaq üçün geri qayıdım".

Əsgər Röyal Həmidov isə bölməyə gəldiyi gündən danışdı. Ona göstərilən doğma münasibətdən söz açdı. "Gənc əsgər hazırlığından sonra xidmətimi davam etdirmək üçün bu bölməyə təyin olundum. Səngərə gələcəyimi eşidəndə sevindim. Çünki hər bir gənc üçün səngərdə dayanmaq qürurludur. Gəldiyim ilk gündən kollektivdən mehribançılıq gördüm. Çox keçmədən mən də bu ailənin bir üzvü oldum. İlk gündən xidmətimdə nümunəvi, bacarıqlı olmağa can atdım. Bu şərəfli yolu uğurla keçdiyim üçün çox fərəhlənirəm. Bu yol, hər bir gənc üçün öncə vətəndaşlıq borcudur. Xidmətim dövründə bir çox üstün keyfiyyətlərə yiyələndim, dəyərli dostlar qazandım. Ordumuzun gücünün şahidi oldum. Xidmətim dövründə savadlı, peşəkar komandirlərimiz tərəfindən hərbi bilik və bacarıqlara yiyələndim. Komandirlərimiz bizə hərbi biliklər, nizam-intizam, döyüş hazırlığı öyrətməklə yanaşı, qayğılarımızla da yaxından maraqlanırlar. Tez-tez fərdi söhbətlər aparır, mənəvi-psixoloji hazırlığımızın yüksək olması istiqamətində işlər görürlər. Hərbi hissəmizdə yaradılan şəraitə isə söz ola bilməz. Sosial-məişət şəraitimiz yüksək səviyyədə təşkil olunub. Belə yüksək şərait yaradıldığına görə Ali Baş Komandanımıza minnətdarlığımı bildirirəm."



natlarının yüksək olduğunu, heç nədən korluq çəkmədiklərini dedilər. Zabitlərin həm tələbkar komandir, həm də qayğıkeş insan olduqlarını bildirdilər. Onu da qeyd etdilər ki, Vətənə övladlıq borcunu layiqincə yerinə yetirib, valideynlərinin yanına başıuca qayıdacaqlar.

Əsgər İlkin Hüseynov dedi ki, hərbi xidmət etmək hər bir gənc üçün qürurlu və sevindiricidir. "Valideynlərim məni hərbi xidmətə yola salanda mənə nümunəvi xidmət etməyi, dövlətimizə, ordumuza layiqli oğul olmağı tövsiyə etdilər. Artıq hərbi xidmətimin başa çatmasına sayılı günlər qalıb. Hərbi xidmət hər kəs üçün vacibdir. Çünki bu həyat məktəbi bizdə mərdlik, mətinlik formalaşdırır. Cəsur olmağı, dostluğa sadiq qalmağı öyrədir. Çətinliyə dözməyi, müxtəlif şəraitlərə uyğunlaşmağı baca-

Əsgərlər danışdıqca bir daha əmin olursan ki, Azərbaycan Ordusunda xidmət edən gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda, cəmiyyətə yararlı gənclər kimi formalaşırlar. Belə gənclərdən biri də Sənan İbrahimlidir. Hərbi xidmət keçməyin vacibliyini yaxşı dərk edən Sənan da qeyd etdi ki, əsgəri xidmət digər yoldaşları kimi onda da mətinlik, dözümlülük, qorxmazlıq kimi xüsusiyyətləri formalaşdırdı. "Evimizə qələbə ovqatı ilə gedəcəm. Tez zamanda torpaqlarımızı işğaldan azad etmək üçün yenidən xidmətə qayıtmaq, xalqımıza Böyük Qələbə sevincini yaşadanların sırasında olmaq arzusu ilə gedəcəm. Hərbi xidmətin öyrətdiyi müsbət vərdişlərdən dostlarıma danışacam. Onlara vətənpərvər, Vətənə sədaqətli olmağı, onu ürəkdən sevməyi tövsiyə edəcəm. Hərb işinin ən şərəfli peşə olduğunu deyəcəm. Ətrafımdakılara təbliğ edəcəm ki, bizim ən ümdə borcumuz hərbi xidmət keçməkdir. Hansı peşəni seçməyimizdən asılı olmayaraq əvvəlcə əsgəri borcumuzu layiqincə yerinə yetirməli, hərbi bilik və bacarıqlara yiyələnməliyik. Bu yolda öz qayğısını və diqqətini heç zaman bizdən əsirgəməyən, silahlardan istifadə etməyi, nizam-intizamlı, mərd, cəsur olmağı öyrədən komandirlərimə hər zaman minnətdar olacam."

Uca dağ zirvələrində söhbətləşdiyim əsgərlərin dedikləri könül xoşluğu aşılayır. Söhbətləşdiyim igidlərin timsalında bütün əsgərlərimizə Vətənə övladlıq borcunun öhdəsindən layiqincə gəlib, onların yolunu gözləyən valideynlərinin yanına sağ-salamat qayıtmaqlarını arzu edirik.

**Baş leytenant Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Ön xətdə düşüncələr

# Dağlarda bir qartal uçuşu gördük!..



Dağları hamı sevir. Dağlar gözəldi, ecazkardı, duruşuna, vüqarına hamı vurulur...

Dağların gözəlliyini əllərin dağın daş əllərinə toxunanda daha gözəl duyursan.

Dağlar heyranlıq ünvanıdı - qışda qar çiçəklərinə, yazda gül-çiçəklərinin ləçəklərinə heyran olursan. Bu heyranlığın ömrü uzun olur.

Dağların göylərində qanad çalan, qanadlarıyla göy üzünün göy üzünə sığal çəkən qartallar görmüşük. Bu gün qartalın bir qədər aralıdan baxanda da yaxın görünən dağların dağ sinəsini kölgələndirən uçuşunu döyüş növbətçiliyi aparan əsgərlərdən savayı hamımız gözlərimiz heydən düşənə kimi izlədik. Vaxtın necə ötüşdüyünü də hiss etməmişdik. Bizə elə gəldi ki, bu uçuş qartalın dağ qardaşına dediyi sözdü, mətləbdi. Bu uçuş deyirdi ki, yan-yörəndən ayaq səsləri kəsilib deyə, yolçuların azalıb deyə qübarlısan. Yaz təzə gəlib, Günəş hələ torpağı doyunca isidə bilmir, səni səngər bilənlərin, sənə söykənənlərin, sənə mətərislənənlərin nəfəsiylə isinirsən. Onlar Vətənin əsgərləridi - sənin əsgərlərindi. Mən də sənin qartal əsgərinəm...

Bu bənzərsiz ecazkarlığı yaddaşlara hopdurmalıydıq. Əsgərlərə dedim ki, sizin Vətən sevginiz bu uçuşdan da ecazkardı. Siz həm döyüş, həm mənəvi-psixoloji hazırlığınızla, həm də Vətənə sevginizlə güclüsünüz. Qartalın erkən yazda dağların dağ sinəsini kölgələndirərək çılğın uçuşuna heyrətlənə bilərik. Bu heyrətin boyu sizin Vətən sevginizin, sizin timsalınızda ordumuza ehtiramımızın, sevgimizin boyundan böyük ola bilməz.

Zabitin də, əsgərlərin də baxışlarında bayaq izlədiyimiz qartal uçuşundan gələn könül xoşluğuna sarılan könül xoşluğu gördüm. Bu, bizim timsalımızda ictimaiyyətin orduya inamının yaratdığı könül xoşluğunun məmnunluğuydu.

Zabit Çingiz Mahmudov gülümsünür:

- Əsgərlərimiz Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edirlər. Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin əmr və göstərişlərini, tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirirlər. İctimaiyyətin orduya münasibəti əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malikdir. Nə qartalın dili-ağzı var danışsın, nə dağların. Bunlar sizin hərbi xidmətinizin mahiyyətini ifadə edən mətləblərdi. Bunlar mənim fikirlərimdi, siz nə deyirsiniz? Bir az əvvəl müşahidə etdiyimiz qartal uçuşunun mahiyyətini necə dərk etdiyinizi özünüz deyin.

Əsgər Rahib Eyvazov:

- Qartalın uçuşu belə deyirsə, biz bundan qürurlanırıq. Yəni, təbiət əsgərə həsəd aparır. Qartal uçuşu deyiləndə yadıma "TurAz Qartalı" təlimi düşür.

Əsgər Dünyamin Tağızadə:

- Qartalın uçuşunun dağa müraciət kimi yozumu ürəyimizcə oldu. Hər birimiz qartalın dağa sevgisini düşüncələrimizə hopduracağıq.

Əsgər Samir İsmayılov:

- Qartalın özünü dağlara əsgər bilməsi bizim düşüncələrimizə təsir etdiyi kimi, çağırışçıların da düşüncələrinə təsir göstərəcək.

Əsgər Samir İsmayılov:

- İnsan təbiətdən çox şey öyrənir. Qartal uçuşu da onlardan biri...

Zabit İbrahim Süleymanlı əsgərlərə müraciətlə deyir ki, qartalın uçuşunun belə yozumu sizə ehtiramdı. Bu ehtiramın sizin döyüş əzminizi də, qələbə ruhunuzu da yüksəldəcəyinə inanırıq.

Zabit Çingiz Mahmudov deyir:

- Deyilənlər döyüş növbətçiliyi aparan əsgərlərimizə etimad kəlmələridi. O kəlmələr Aprel döyüşlərinin iştirakçılarına çatır. Böyük Qələbədən sonra bu kəlmələr bizə də ünvanlanacaq. İbrahimin dedikləri bir daha təsdiqləyir ki, dövlət üçün prioritet olan ordu quruculuğu prosesi kimi güclü ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığı da dönməz prosesdir. Əsgərlərin Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqəti, bu sədaqət əsasında aparılan döyüş və mənəvi-psixoloji hazırlıq Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlayacaq.

Zabitin dedikləri əsgərləri duyğulandırır...

Xatırlayıram ki, 2016-cı ilin Aprel döyüşlərindən az sonra ön xətdə yerləşən hərbi hissələrdən birində səngərdə əsgərlərlə söhbətləşmişdik. Bir fikir digər bir fikrin davamı olmuşdu. Qələbədən danışmışdıq. Əsgərlərdən biri demişdi ki, Azərbaycan əsgəri ruhumuzu yaşadır, onda bu qələbə ruhumuzun qələbəsidi.

Xatırlatma əsgərlərin düşüncələrində hiss edilməsi çətin olmayan bir tərpəniş yaradır. Hamısı qürurunun deyəcəyi kəlmələrlə qoşa yaşanılmasını istəyirdi. Dağda qartalın müşahidə etdiyimiz uçuşu, bu uçuşun mahiyyətinin dərki, bu dərketməyə görə başlayan müzakirə formatlı söhbət düşüncələrimizin nizamını Böyük Qələbəyə yönəltdi. Əsgər Cavid Alişanov qürurla xatırlayıb, qürurla xatırladığım o söhbətə qürur doğuracaq münasibət bildirir:

Ali Baş Komandanın əmriylə döyüş növbətçiliyindən döyüşə gedəcəyik, qələbə qazanacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik.

- Bayaq qartalın uçuşuyla bağlı dediyimiz fikirlər sizə də ünvanlanacaq, o fikirlər sizin də halalınız olacaq, - deyirəm.

- Bu müharibədə dünyanı heyrətləndirən qəhrəmanlıqlar olub. Xocalıda Tofiq Hüseynovun, Əlif Hacıyevin, Şuşada Albert Aqarunovun, Tərtərdə Vəzir Orucovun, Füzulidə Rasim İbrahimovun, onlarla başqalarının qəhrəmanlığı kimi. Onların yolunu 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanları davam etdirdi. Ali Baş Komandanın əmriylə Böyük Qələbəni bu günün əsgərləri qazanacaq. Dünya Azərbaycan Ordusunun qüdrətini görəcək onda...

Əsgər Rahib Eyvazovun fikrini zabit Murad Xəlilzadə tamamlayır:

- Onda qartalların məğrur uçuşu Cıdır düzündə izləyəcəyik.

Rahibin fikrini mən tamamlayıram:

- O uçuşlara qalib əsgərlər üçün qalibiyyətə görə ehtiram uçuşu deyiləcək.

Səngərdən gördüyümüz qartal uçuşu məzmunlu bir söhbətə mövzu oldu...

Gün çeşt yerinə gələndə bir qədər aralıdan bizə sarı uçan bir qartal göründü. Bayaq Muradın dediklərini xatırladıq: "Qartalların məğrur uçuşunu Cıdır düzündə izləyəcəyik". Bu qartalı o qartalların yolgöstərəni bildik...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Ermənistan ordusunda kriminal hadisələr

Dünyada tüğyan edən koronavirus işğalçı Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları arasında da yayılıb.

Bu xəstəliyə yoluxanlar sırasında 10-cu dağ atıcı diviziyasının komandiri polkovnik Karen Şakaryan da var. Zabit ağır vəziyyətdə tibb müəssisəsinə yerləşdirilib.

Bu arada youtube kanalında Eçmiədzin şəhərinə onlarla təcili tibbi yardım maşınının göndərilməsi barədə süjet yayılıb. Bu xəbərləri eşidən valideynlər əsgər övladlarının da virusa yoluxduğundan ehtiyat edərək böyük təşviş yaşayıblar.

Valideynlərin səylərinə baxmayaraq, koronavirusa yoluxan əsgərlərin vəziyyəti ilə bağlı heç bir məlumat verilmir. Narahatlığa son qoymaq məqsədilə valideynlər Ermənistan Müdafiə Nazirliyinə çoxlu sayda müraciətlər ünvanlayıblar.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində dözülməz şərait, nizamnamədənkənar münasibətlər, təminatın zəifliyi, fiziki və mənəvi təhqirlər səbəbindən xidmət yerindən qaçma halları artmaqda davam edir.

İşğalçı ordunun Ağdərə yaşayış məntəqəsindəki bölməsində xidmət edən əsgər Samvel Harutunyan hərbi hissədən qaçıb. Faktı təsdiq edən hərbi polisin əməkdaşı T.Avanesyan onu da bildirib ki, bu əsgərin dəfələrlə hərbi hissədən qaçmasına baxmayaraq, onun yuxarıda "böyük havadarları" olduğundan barəsində cinayət işi açılmır.

Əsgərin axtarılması, tapılaraq geri qaytarılması istiqamətində tədbirlər görülür.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif səbəblərdən törədilən cinayətlərin ardı-arası kəsilmir. Bu günlərdə düşmən ordusunda daha bir intihara cəhd hadisəsi ortaya çıxıb.

1999-cu il təvəllüdlü, 2018-ci ildə Vanadzor hərbi komissarlığından hərbi xidmətə çağırılan və hazırda 6-cı dağ atıcı alayında xidmət edən leytenant Arquşt Martirosyan evində olan zaman mətbəx bıçağı ilə sol qolunu bir neçə yerdən, eləcə də bilək nahiyəsindən kəsməklə intihara cəhd edib. Lakin yaxınları tərəfindən təcili olaraq Xankəndi hərbi hospitalına çatdırılan zabitin həyatını xilas etmək mümkün olub.

Özünə qəsd etmək istəyən leytenant A.Martirosyanın qumar azarkeşi olması və bu üzdən dəfələrlə hərbi hissəni özbaşına tərk etdiyi də bildirilir. O, uduzduğu külli miqdarda pulu ödəyə bilmədiyi üçün həyatına son qoymaq qərarına gəlib.

İctimaiyyətə rəsmi məlumat verilməsə də, faktla bağlı araşdırma başlayıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## PKK-nın qadın bölməsinin aparıcı nümayəndəsi zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri və Milli Təhlükəsizlik Təşkilatı (MİT) İraqın Qəndil bölgəsində PKK terror təşkilatına qarşı uğurlu əməliyyat keçirib.

Nəticədə PKK-nın qadın bölməsinin aparıcı nümayəndəsi olan Nazife Bilen məhv edilib. Terrorçu qadın uzun illər Hacer Guyi və Hacer Hilal ləqəbləri ilə fəaliyyət göstərib. O, Suriya və Livan ərazilərində PKK-nın başçısı Abdullah Öcalandan şəxsən təlimlər alıb.

## Əfqanıstanda taliblərin hücumları nəticəsində 19 hərbçi həlak olub



Əfqanıstanda "Taliban" hərəkatının hücumları nəticəsində təhlükəsizlik qüvvələrinin 19 əməkdaşı həlak olub.

Əfqanıstan Müdafiə Nazirliyinin məlumatına əsasən, hücumlardan biri ölkənin cənubundakı Zabul əyalətində baş verib. Silahlılar martın 30-na keçən gecə orduya məxsus posta hücum edərək altı əsgəri qətlə yetirib. Həmçinin atışma nəticəsində hücum edən bir neçə silahlının da öldürüldüyü bildirilir. Ölkənin şimal-qərbində yerləşən Tahar əyalətində isə döyüşlər nəticəsində 13 polis əməkdaşı həlak olub, altı nəfər yaralanıb.

## Beynəlxalq koalisiya öz qərargahını İraq ordusuna təhvil verib



ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq terror əleyhinə koalisiya martın 30-da ölkənin şimalında Suriya ilə sərhəddə yerləşən Naynava əyalətindəki qərargahını İraq ordusuna təhvil verib. Həmin əyalətin administrativ mərkəzi bir zamanlar İŞİD qruplaşmasının paytaxt elan etdiyi Mosul şəhəridir.

Koalisiya qüvvələri qərargahı xarici qüvvələrin İraqın bəzi bölgələrindən çıxarılması prosesi çərçivəsində tərk edib. Eyni zamanda, amerikalı hərbçilər İraq Kürdüstanının Ərbil şəhəri yaxınlığında yeni bazanın tikintisini sürətlə davam etdirirlər. Tikinti başa çatdıqdan sonra o, Yaxın Şərqdəki ən iri hərbi bazalardan biri olacaq.

## Finlandiya İraqda yerləşdirdiyi hərbi qulluqçularının əksəriyyətini bu ölkədən çıxarır



ABŞ-ın İraqda rəhbərlik etdiyi koalisiyanın digər iştirakçı dövlətləri kimi Finlandiya da öz ordusunu geriyə qaytarmağa başlayıb.

Finlandiyanın müdafiə qüvvələrinin bəyanatında bildirilir ki, ölkə hökuməti koronavirusdan qorunma tədbiri kimi, ölkə hüdudlarından kənarda olan vətəndaşlarının sayını azaltmaq qərarına gəlib. Bununla əlaqədar, "Sarsılmaz qətiyyət" adlı hərbi əməliyyat çərçivəsində İraqda yerləşdirilən fin hərbi kontingentinin böyük hissəsini ölkəyə qaytarmaq qərara alınıb.

Bu qərara əsasən, İraqda olan 50 hərbi qulluqçu yaxın vaxtlarda geri qaytarılacaq, daha sonra onlar Finlandiyada karantinə yerləşdiriləcəklər. Finlandiya silahlı qüvvələrin əsgərlərinin qalan hissəsi bundan sonra da İraqda qalacaq.

Qeyd edək ki, "İslam dövləti" beynəlxalq terror təşkilatına qarşı aparılan "Sarsılmaz qətiyyət" əməliyyatı çərçivəsində 80-ə yaxın finlandiyalı hərbi ekspert İraqa göndərilmişdi. Bundan əvvəl koalisiya qüvvələri bəyan etmişdilər ki, İraqın təhlükəsizlik qüvvələri koronavirusun potensial yayılmasının qarşısını almaqdan ötrü bütün təlimləri dayandırıblar. Bu, bir çox Qərb ölkələri öz qüvvələrini geri çağırmağa vadar edib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

*Əsgər məktubu*

## Biz Vətənin xidmətindəyik, siz də Vətən üçün evdə qalın!



Tarixdə zaman-zaman neçə-neçə dövləti, minlərlə insanı məhv edən vəba, taun kimi bir çox epidemiyalar olub. Belə epidemiyalarla mübarizə bəzən kortəbii, bəzən türkəçarə yollarla aparılıb. Təbabət inkişaf etdikcə epidemiyalara qarşı mübarizə də nisbətən asanlaşıb. Mənşəyi məlum olan epidemiyalarla mübarizə bir qədər asan olub. Bəşəriyyət belə bir bəla ilə 2020-ci ildə də üzləşdi. Çindən başlayan, martın sonlarında dünyanın 190-dan çox dövlətinə yayılan koronavirus pandemiyası həm dünyəvi, həm də olduqca qorxulu problemdir. 1 milyona yaxın insanı yoluxduran, 30 mindən artıq insanın həyatına son qoyan bu amansız bəla ilə təkcə dövlət deyil, hər bir vətəndaş da mübarizə aparmalıdır. Məhz hər bir vətəndaş. İri dövlətlərdə pandemiya başlayanda birgə mübarizə aparılmadığından, əhali bu bəlanın mahiyyətinə ciddi əhəmiyyət vermədiyindən ölənlərin sayı çox oldu. Bu qorxulu bəlaya insan ünsiyyətlə yoluxur. Koronavirusun daşıyıcıları onunla qısa müddətdə təmasda olan neçə-neçə insanı yoluxdurur. Hər yoluxan daha neçə nəfəri yoluxdurur. Bu səbəbdən yayılmanın qarşısını almağın yeganə yolu vətəndaş məsuliyyətidir, yəni, bütün vətəndaşlar dövlətin bu bəlaya qarşı apardığı mübarizənin iştirakçısı olmalıdır, dövlətin qəbul etdiyi hər bir qərara böyük məsuliyyətlə əməl etməlidir. Televiziyalarda bu haqda geniş maarifləndirici söhbətlər aparılır. Bütün verilişlər eyni müraciətlə hazırlanır: "Evdə qal".

Dünyəvi dövlət olan Azərbaycanda bu qorxulu virusun yayılmaması üçün bütün zəruri tədbirlər görülüb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb, xüsusi karantin rejimi tətbiq olunub. Martın 24-də Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan yaşayış kompleksinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vətəndaşlara xitabən deyib: "...xüsusi karantin rejimi tətbiq edilib, buna əməl edin. Mən əminəm ki, həm milli həmrəylik, həm məsuliyyət, həm də milli birliyimiz bizə imkan verəcək ki, bu xəstəliyə qalib gələk. Biz birlikdə güclüyük". Bu kəlamlar hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının yerinə yetirməli olduğu mənəvi borcun istiqamətini müəyyənləşdirir. Yeni laboratoriyaların alındığı, testlərin gətirildiyini, 10-dan çox xəstəxananın həm karantin rejimi, həm də xəstəliyə yoluxmuş insanların müalicəsi üçün ayrıldığını bildirən ölkə başçısı inamla deyib: "Biz dövlətimizi, xalqımızı, insanları qorumalıyıq". Bu fikir bu günümüz üçün başlıca vəzifədir. Bu vəzifəni dəqiqliklə yerinə yetirməklə həm özümüzü, həm əzizlərimizi, həm də ətrafımızdakıları ölümdən qoruya bilərik. Hər birimiz bu vəzifənin icraçısı olmalıyıq. Unutmayaq ki, bu, həm dövlətə, həm də dövlətçiliyə, azərbaycançılığa sədaqətdir.

Biz hərbi xidmətdəyik. Torpaqlarımızı qoruyuruq. Torpaqlarımızı qorumaq vətəndaşları qorumaqdır. Hər birimiz ata-anamızı, əzizlərimizi, tanımadığımız həmvətənləri qoruyuruq. Bu, bizim vəzifə borcumuzdur. İndi, belə bir gərgin şəraitdə hər bir kəsin vətəndaşlıq borcu müəyyən edilmiş rejimə ciddi əməl etməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə tətbiq edilən xüsusi rejimin mahiyyətini dərk etmək də vətəndaşlıq borcudur, ona əməl etmək də.

Mən Azərbaycan Ordusunun əsgəri kimi bütün əsgər atalarına, analarına, ümumən həmişə orduya inanan, güvənən ictimaiyyətə müraciət edirəm: Torpaqlarımızı qorumaq bizim vəzifəmizdir, xüsusi karantin rejiminə ciddi əməl etmək sizin. Biz dövlətimizi, xalqımızı döyüş növbətçiliyimizlə qoruyuruq, siz də bu rejimə ciddi əməl etməklə qoruyun. Biz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edəcəyik. Koronavirusla mübarizədə elə bilin ki, sizin xidməti borcunuz evdə qalmaqdır. Azərbaycan Ordusunun şəxsi heyəti inanır ki, hər bir Azərbaycan vətəndaşı xüsusi karantin rejiminin tələblərinə ciddi əməl edəcəkdir.

Mən ata-anamdan, digər əzizlərimdən, Azərbaycan Ordusuna güvənənlərdən xahiş edirəm: Biz Vətənin xidmətindəyik, siz həm özünüz üçün, həm də Vətən üçün evdə qalın!

**Əsgər**
**Tacir CƏFƏROV,**
**"N" hərbi hissəsi**

*Hərbi texnikalar, silahlar*

## RBG-6M11 qumbaraatanı





Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin müəssisəsi tərəfindən istehsal olunan silahlardan biri də çox təchizatlı 40 mm-lik RBG-6M11 yarımavtomat qumbaraatanıdır.

Qumbaraatan düşmənin açıq ərazidə, səngərlərdə, yüksəkliklərin arxa tərəflərində, çökəkliklərdə, dərələrdə və s. yerlərdə yerləşən canlı qüvvəsini və yüngül zirehli hədəflərini məhv etmək üçün nəzərdə tutulub.

Qumbaraatan geniş spektrdə aşağı sürətli 40x46 mm-lik kalibrli qumbaralardan atəş açmaq üçün nəzərdə tutulub. Silah özündə uzunluğu 300 mm olan yüngül, polad lüləli, baraban bloklu, gövdəsi oxlu, güc ştanqlı, buraxıcı zərbə mexanizmli, tapanca tutacaqlı və yüngül universal teleskopik qundaqdan ibarət olan revolver sxemini təsvir edir. Silahın qundağı tənzimlənəndir. Qumbaraatanın hədəfə tuşlanması kollimator tipli nişangahla yerinə yetirilir.

Qumbaraatanda 40x46 mm-lik kalibrli döyüş sursatından və düşmənin canlı qüvvəsini, yüngül zirehli texnikaları məhv etmək üçün kumulyativ, tüstü pərdəsindən, eyni zamanda, döyüş sahəsində yerüstü hədəflərin maskalanması üçün paraşütlə işıqlandırılan tüstülü döyüş sursatlarından istifadə etmək olar.

40 mm-lik RBG-6M11 qumbaraatanının mexanizmi yarımavtomatdır, ondan atəş tək-tək açılır. Effektli atəş uzaqlığı 375 metr, maksimal atəş uzaqlığı 400 metr, lüləsinin uzunluğu 300 mm-dir. Patron yuvasının uzunluğu 140 mm-dir. Qumbaranın ilkin atəş sürəti saniyədə 76 metr təşkil edir. Silahın təchiz olunmamış və nişangahsız boş vəziyyətdə kütləsi 5,9 kiloqramdır. Silahın ümumi (qundağının qatlanmış və açıq şəkildə) uzunluğu 725-800 millimetrdir. Atəş tezliyi dəqiqədə 4-6 atışdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycanda #evdəqalevdənoyna şüarı altında onlayn kiberidman yarışlarına start verilir




Azərbaycan Kiber İdman Federasiyası və "Gaming League Azerbaijan" Gənclər və İdman Nazirliyinin dəstəyi, "Topaz"ın baş sponsorluğu ilə onlayn turnirlərin təşkilinə hazırlaşır.

Həmin yarışlarda ölkəmizdə yaşayan istənilən şəxs adi ev şəraitində səhhəti ilə bağlı heç bir təhlükə ilə üzləşmədən iştirak edə bilər. Bununla da kiberidman öz universal və innovasiya keyfiyyəti sayəsində məhz gələcəyin idman növü olduğunu bir daha isbatlamış olur. Hazırkı vəziyyətlə əlaqədar gənclərin yaranan asudə vaxtlarını evdən çıxmadan daha səmərəli və maraqlı keçirmələri, eləcə də bunun qarşılığında mükafat qazanmaları həm onların, həm də valideynlərin ürəyincə olacaq. Belə ki, ölkəmizin bütün FIFA20 həvəskarları üçün yeni, onlayn turnirlər seriyasına start verilir. Martın 29-da start götürəcək və #evdəqalevdənoyna şüarı altında keçiriləcək FIFA20 turnirlər seriyasında, iştirakçılar 6-12, 13-18 və 18-dən yuxarı yaş qruplarına bölünərək mübarizə aparacaqlar. Qaliblər müxtəlif pul mükafatları və hədiyyələrlə təltif olunacaqlar.

### Azərbaycan şahmatçıları Teymur Rəcəbovu iddiaçılar turnirinə qaytarmağı tələb edirlər



Kişi şahmatçılardan ibarət Azərbaycan milli Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçə, peşəkar şahmatçılara və şahmat həvəskarlarına açıq məktub ünvanlayıb.

Üççat Avropa çempionları məktubda koronavirus pandemiyasına görə yarımçıq dayandırılan iddiaçılar turnirinin belə şəraitdə keçirilməsinin səhv qərar olduğunu bildirib və FIDE rəhbərliyindən Teymur Rəcəbovu iştirakçılar sırasına qaytarmağı xahiş və tələb ediblər. Məktubda deyilir: "Hesab edirik ki, belə şəraitdə iddiaçılar turnirinin keçirilməsi və dayandırılması normal idman prinsiplərinə qarşı addım sayılır və şahmatçıların sağlamlığına qarşı biganə münasibətin göstəricisidir. FIDE qəbul etdiyi qərarlara görə şahmatçılar və şahmat dünyası qarşısında məsuliyyət daşımalıdır. Biz hadisələrin belə davam etməsindən zərərçəkən komanda yoldaşımız Teymur Rəcəbovun iddiaçılar turnirinin iştirakçıları sırasına qaytarılmasını xahiş və tələb edirik".

Müraciəti Şəhriyar Məmmədyarov, Arkadi Naydiç, Rauf Məmmədov, Nicat Abasov və Qədir Hüseynov imzalayıblar.

### AGF 15 dəqiqəlik səhər gimnastikası layihəsinə start verib



Azərbaycan Gimnastika Federasiyasının (AGF) "Instagram" səhifəsində 15 dəqiqəlik səhər gimnastikası layihəsinə start verilib.

Bu növ məşqlər şənbə və bazar günləri istisna olmaqla, hər gün saat 11:00-da təqdim olunacaq.

Hərəkətləri gimnastika növləri üzrə böyüklərdən ibarət yığma komandalarımızın gimnastları, məşqçiləri, fizioterapevt və ümumi fiziki hazırlıq üzrə mütəxəssislər nümayiş etdirəcəklər.

Uşaqlardan yaşlı insanlaradək hamı üçün faydalı olan bu hərəkətlər gün boyu səhər gimnastikasında iştirak edənlərə gümrah olmaqda kömək edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 149
Nüsxə 3900